# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 4 iyun tarixli 86 nömrəli qərarı ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 15 yanvar tarixli 250 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 25 iyun tarixli 452 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 4 iyun tarixli 86 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 6, maddə 488) ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.2-ci bənddə "Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yerli məşğulluq xidməti orqanlarına" sözləri "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə" sözləri ilə əvəz edilsin;

1.2 2.3-cü bəndin "ç", "d", "e" və "ə" yarımbəndləri ləğv edilsin;

1.3. 2.6-cı bəndin "ç" yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda "d", "e", "ə" və "f" yarımbəndləri əlavə edilsin:

"d) Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyətini həyata keçirmək üçün fərdi icazə almış əcnəbilərin mənşə ölkələri və ixtisasları (və ya peşələri) daxil olmaqla, iqtisadi fəaliyyət sahələri üzrə sayı haqqında məlumatlar və il ərzində müddətlərinin uzadılması gözlənilən müvafiq fərdi icazələrin sayı üzrə proqnozları;

e) cari və ötən il üçün təsdiq edilmiş kvotadan istifadə olunması vəziyyətinə dair məlumatı;

ə) cari və ötən il ərzində əcnəbi işçi qüvvəsinin cəlb olunması qaydalarının işəgötürənlər tərəfindən pozulması halları haqqında məlumatı;

f) işəgötürənlərin əcnəbi işçi qüvvəsinə tələbatına dair ümumiləşdirilmiş proqnoz-məlumatı.".

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə**

Bakı şəhəri, 7 oktyabr 2011-ci il

№ 161